No: 04 2025
https://doi.org/10.64400/ea25-4-27
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT**

# NAXÇIVANIN RƏNGSİZ ŞƏFFAF ŞİR ALTINDAN CIZMA VƏ OYMA NAXIŞLI KERAMİKASI (IX-XIII əsrlər)

**Aysel İSMAYILOVA**
AMEA Naxçıvan Bölməsi, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif: aysel_ismayi@mail.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
Naxçıvan, şirli keramika, monoxrom boyalı keramika, polixrom boyalı keramika, Yaxın Şərq, Cənubi Qafqaz.

**XÜLASƏ**
Məqalədə Naxçıvanın IX-XIII əsr şirli keramika nümunələrindən rəngsiz şəffaf şir altından cızma naxışlı keramikalar, onların Yaxın Şərq və Cənubi Qafqaz bənzərləri, naxış və bəzək motivləri araşdırılmış və tədqiqata cəlb olunmuşdur. Azərbaycanda olduğu kimi, Naxçıvanda da şirli keramikanın inkişafı IX əsrdən etibarən başlamış, XIII əsrədək böyük bir inkişaf yolu keçmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu tip keramikalar anqob üzərindən boyasız, monoxrom və polixrom boya naxışlı keramika nümunələri ilə Naxçıvanda çoxluq təşkil etməklə birgə, onların bənzərləri Yaxın Şərq və Cənubi Qafqaz regionunda izlənilir. İstər boyamada, istərsə də naxış və bəzək motivlərində var olan fərqliliklər onların yerli ustaların təxəyülünün məhsulu olduğundan xəbər verir. Həmçinin məqalədə cızma və oyma naxış motivinin yaranması, inkişafı, onun tətbiqi qaydaları və növlərindən bəhs olunmuşdur. ilk dövrlərdə sadə texnologiya zaman-zaman daha mürəkkəbləşmiş, boyamada sadə usullar monoxrom və polixrom boyalarla əvəzlənmişdir. Boyamada yaşıl, mavi, bənövşəyi, qəhvəyi və sarı rənglər bəzən cızma naxışları möhtəşəm şəkildə izləsə də, bəzi nümunələrdə dağınıq, töküntü və naxışdan kənar nümunələrə rast gəlinir.

## GİRİŞ

Naxçıvan ərazisi ən qədim insanların yaşadığı ilk məskənlərdən biri olmuşdur. Bu məskunlaşma tarixin bütün mərhələlərində kəsintisiz olaraq davam etmiş və özündə zəngin maddi-mədəniyyət nümunələri, qəbir abidələri, yaşayış yerləri ehtiva etmişdir. Bu zəngin maddi-mədəniyyət nümunələri Azərbaycan tarixinin, mədəniyyətinin, iqdisadi-mədəni əlaqələrinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Ancaq, bu mədəniyyət abidələri zaman-zaman yadelli hücumlarına məruz qalmış və dağıdılmışdır.

Erkən orta əsrlərdə Sasani-Bizans müharibələri və tükdilli tayfaların bu əraziyə müntəzəm hücumu nəticəsində baş verən sosial-siyasi dəyişikliklər və ara müharibələri sənətkarlığın tənəzzülünə gətirib çıxarırdı. Bu səbəbdən də nəinki Naxçıvanda, ümumən Azərbaycanda Antik dövrdən etibarən yüksələn xətlə inkişaf edən keramika istehsalının Erkən orta əsrlər dövründə tənəzzülünün şahidi oluruq. Tənəzzül o həddə gəlib çatmışdı ki, dulus çarxlarının istifadəsi belə dayandırılmışdı (Muradov, V, 2007). Erkən orta əsrlərin sonlarından başlayaraq dulusçuluq sənəti yenidən dirçəlməyə başladı və bu dirçəliş XIII əsrin ortalarınadək davam etdi. Dulusçuluq sənətinin yüksəliş və tənəzzül dövrləri şirli keramikaya da öz təsirini göstərmişdir. Şirli keramikanın Azərbaycan ərazisində IX əsrdən etibarən daha müntəzəm, daha intensiv şəkildə istehsal olunmağına baxmayaraq, şirləmə texnologiyası bu ərazilərdə I əsrdən bilinməkdədir (Əfəndi, R, 1976). Ancaq, Naxçıvanda şirli keramikanın ən çox inkişaf etdiyi dövrlər IX-XIII əsrlərə təsadüf edir. Bunu həm arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan keramika nümunələri, yerüstü məmulatlar, bu dövrlər üçün xas olan memarlıq abidələri, həm də ərəb coğrafiyaçı səyyahlarının əsərləri sübut edir. IX əsrdən etibarən Naxçıvan ərazisi iqdisadi yüksəliş dövrünə qədəm qoymuşdur. Məhsuldar qüvvələr inkişaf etmiş, təsərrüfat canlanmış, sənətkarlıq və ticarət öz inkişafının ən yüksək mərhələsinə çatmışdır. Naxçıvanda təsərrüfat həyatının canlanması sənətkarlıq sahəsində özünü daha qabarıq şəkildə göstərirdi. Sənətkarlığın bir növü olan dulusçuluq sənəti bu dövrdən etibarən daha da inkişaf etmişdir. İstər forma, istərsə də bədii və estetiklik baxımdan bu dövrün keramika məmulatları öz gözəlliyi ilə göz oxşayır. Xüsusən də, şirli keramikanın ilk yarandığı dövrdən bəri istehsal olunan rəngsiz şəffaf

şirli keramika nümunələri bu dövrlərdə daha da inkişaf etmiş və öz rəngi, quruluşu, naxış və bəzək motivləri ilə göz oxşamışdır. Şir altından çəkilən sadə monoxrom və polixrom rənglər zamanla püxtələşmiş və daha mürəkkəb üsullarla əvəzlənmişdir. Şirli qabların bəzədilməsində ən çox boya naxışlardan və "qraffito" (yaxud sqraffito), (italyanca "cızma") üsulundan istifadə olunurdu. Bişməzdən əvvəl, anqoblanmış, tam qurumamış (nəm) qabın üzəri cızma üsulu ilə səthi naxışlanırdı. Qraffito üsulu ilə salınmış naxış çox səthi olduğundan onu relyef naxış adlandırmaq olmaz. Əslində, X əsrdə meydana gələn bu üsul o dövrdə o qədər də geniş yayılmamışdı.

Antik dövrdən Romada və VII əsrdən Çində dulusçuluqda istifadə olunan cızma naxışlar orta əsrlərdə Mərkəzi Asiya, Cənubi Qafqaz və Yaxın Şərq ölkələrində geniş yayılmışdı. Bu qabların istehsalında təkamül XI-XII əsrlərdə daha sürətlə gedirdi. Qablar monoxrom qalsalar da, təsvirlərin çəkildiyi cızma xətlər qalınlaşmışdı. Naxçıvan Dövlət Tarix muzeyindən əldə olunan materiallara əsasən deyə bilərik ki, Naxçıvan ərazisində cızma naxışlı şirli keramikaların bir neçə növünə rast gəlinmişdir. Cızma naxışların X əsrdə meydana gəlməsinə baxmayaraq, bu dövrdə ondan kütləvi şəkildə istifadə və istehsal olunmamışdır. Bəzi naxışlar birbaşa saxsı üzərindən çəkilsə də, böyük əksəriyyəti anqob üzərindən çəkilən nümunələrdir. Naxışı birbaşa saxsı üzərindən çəkilən şirli keramika nümunələri azlıq təşkil edir. Hətta Azərbaycan ərazisindən bu dövrə aid cızma naxışlı şirli keramika nümunələrinin demək olar ki, böyük əksəriyyəti yaşıl şirli keramikalardır (Əhmədov, Q, 1979). Naxçıvan ərazisində aşkar olunan bu tip keramika məhsulları öz oxşarlarını Şəmkir şirli keramika nümunələrində tapır.

**ANQOB ÜZƏRİNDƏN BOYASIZ CIZMA VƏ OYMA NAXIŞLI KERAMİKA.**

XI-XIII əsrlərdə artıq cızma naxışlar mürəkkəbləşmiş, hətta bəzi nümunələrdə bütün səth boyu tətbiq edilmişdir. Bu dövrlərə aid edilən oyma naxışlı şirli keramika məmulatı ağ fon üzərindən tətbiq edilən həndəsi və nəbati ornamentlə naxışlanmış, rəngsiz şirlə örtülmüşdür. Bəzi nümunələrində mis oksidinin töküntülərinə də rast gəlmək olar. Tətbiq edilən qrafitto naxış digər rənglərə görə rəngsiz şir altından daha mükəmməl və dəqiq görünür. Nəbati və həndəsi ornamentlərdən istifadə edilərək qoşa düz və ziq-zaq cızıqlar ( şəkil 1.5), ağac və gül təsvirləri çəkilmişdir (şəkil 1.1). Bu növ qabların çoxluğu və qablarda baş verən istehsal nöqsanları onların məhz yerli istehsalat olduğundan xəbər verir. Bundan başqa Xaraba-Gilan ərazisində bu növ keramikaların aşkar olunduğu təbəqədən məhz Eldənizlər dövrünə aid sikkələrin də olması belə naxışlı keramikaların bu dövrlərdə istehsalından xəbər verir. Bu nümunələrdən Naxçıvanın orta əsr yaşayış yerlərinin demək olar ki, hər birindən, xüsusən də Xaraba-Gilan ərazisindən çox miqdarda aşkar olunmuşdur (Ибрагимов, Б, 2000).



**Şəkil 1**. Anqob üzərindən rəngsiz cızma və oyma naxış.
Naxçıvan Dövlət Tarix Muzeyi. (1. İnv. A-3596), (4. İnv. A-6140), (5. İnv. A-3732).

## ANQOB ÜZƏRİNDƏN İSLİMİ NAXIŞ.

İslimi tipli naxışlar müxtəlif sözlərlə ifadə edilməsinə baxmayaraq, Azərbaycanda Azərbaycanda, Orta Asiyada, Türkiyədə (islimi), İranda, Əfqanıstanda (eslimi), Hindistan və Pakistanda (selimi, eslimxatay), Qərbi Avropa və Amerikada (arabesk) dekorativ-tətbiqi sənətin bütün sahələrində istifadə olunan bir naxış motividir (Керимов, Л, 1983). Onun yarpağabənzər bir və ya iki qanadlı naxış elementləri var. Sadə və mürəkkəb olmaqla bir neçə növə malikdir. 1. Sadə islimi, 2. Qanadlı islimi, 3. Haçalı islimi, 4. Hörmə islimi, 5. Butalı islimi, 6. İslimibəndlik (Керимов, Л, 1983). Naxçıvan ərazisindən aşkar olunan bu tip qablar əsas etibarı ilə XI əsrdən sonrakı dövrlərə aid edilir. Bu naxışların bənzərlərinə Beyləqan, Şəmkir (Достиев, Т, 2017), (şəkil 12), Şabran və İran ərazisində rast gəlinir. Aşkar olunan nümunələrdən birində qabın kənarından iki qoşa xətt arasında tor şəklində cızıqlar atılmış və bu haşiyənin ortası islimi naxışları ilə bəzədilmişdir (şəkil 2.1), digər nümunədə isə islimi naxış dairəvi bir xətt ortasında həkk olunmuşdur (şəkil 2.2).

## ANQOB ÜZƏRİNDƏN ŞAMPLEV NAXIŞ.

Şamplev tipli naxış motivində qab bişirilməzdən əvvəl anqob çəkilir və dekorasiya anqob üzərindən həkk olunurdu. Daha sonra naxışlanmamış yerlər oyulub götürülür, üzərindən şəffaf

**Şəkil 2**. Anqob üzərindən islimi naxış.



1 2

Naxçıvan Dövlət Tarix Muzeyi. (1. İnv. A-361), (2. İnv. A-5791)

rəngsiz şir çəkilirdi. Bu oyulma ya bütün səthə tətbiq olunurdu, ya da tətbiq edilən naxışın ətrafı müəyyən qədər haşiyələnir və oyulurdu. Bu zaman oyulmuş tərəf daha tünd, anqoblu tərəf isə biraz açıq fonda görünürdü. Bu nümunələrə Naxçıvan ərazisində kasa tipli qablarda və forma verməyən qırıqlarda təsadüf edilir (şəkil 3.1). Bəzi nümunələrində yaşıl rəngin töküntülərindən də istifadə olunmuşdur. Naxışlarla üst-üstə düşməsə də, görünüşdə əməlli fərqlər yaratmışdır (şəkil 3.2), (şəkil 3.3), (şəkil 3.4). T.İ.Makarova “şamplev” texnikasını qraffito texnikasının məntiqi yekunu adlandırır. A.L.Yakobsonun fikrincə isə, şamplev texnikası ilə böyük dizaynlı keramika XI əsrdə, kiçik dizaynlı keramika isə XII-XIII əsrin əvvəllərində istehsal edilmişdir. Bu dizaynlı keramikadan 11 ədəd Naxçıvanın Xaraba- Gilan ərazisindən aşkar olunmuşdur (Ибрагимов, Б, 2000). Naxçıvanda şamplev tipli naxış motivlərinin dövrləşdirilməsi məhz Xaraba-Gilan ərazisindən aşkar olunan numizatik materiallar (Eldəniz sikkələri) əsasında aparılır. Onların oturacaqları alçaq halqavari formada, divarları nisbətən düz və geniş olmuşdur. Adıçəkilən dövrlərə aid şamplev tipli naxış motivləri Azərbaycanın digər bölgələrindən də aşkar edilmişdir (Достиев, Т, 2017), (şəkil 12).



**Şəkil 3.** Anqob üzərindən şamplev naxış.
Naxçıvan Dövlət Tarix Muzeyi. (1. İnv. A-12846), (2. İnv. A-5846), (3. İnv. A-3718), (4. İnv. A-5812).

## ANQOB ÜZƏRİNDƏN MONOXROM BOYA NAXIŞLI CIZMA VƏ OYMA.

Bu tip keramikalar az sayda olsa da, yaşıl və mavi boyalarla təmsil olunur. Az sayda nümunələrlə təmsil olunan ağ fon üzərindən yaşıl naxış rəngin töküntüləri kimi vurulmuşdur. Cızma naxışın sadəcə bir neçə yerini əhatə etmiş və demək olar ki, naxışları izləməmişdir. Kasalardan birinin kənara qatlanmış ağız hissəsinə vurulduğu halda (şəkil 4.1), digər kasanın ortasına biraz tünd şəkildə vurulmuşdur (şəkil 4.2). Digər nümunələrə görə mavi boya naxışlı keramikalar az sayda əldə olunmuşdur. Bəzi nümunələrdə mavi boya naxışları mükəmməl şəkildə izləsə də (şəkil 4.3), digər nümunələrdə ya tam şəkildə izləməmiş, ya da demək olar ki, cızma ətrafında və ya daxilində nöqtələr şəklində (şəkil 4.4) görünmüşdür.



**Şəkil 4.** Anqob üzərindən monoxrom boya naxışlı cızma və oyma.
Naxçıvan Dövlət Tarix Muzeyi. (1. İnv. A-1458) (2. İnv. A-1150) (3. İnv.A-5823), (4. İnv.YF-11681).

## ANQOB ÜZƏRİNDƏN POLİXROM BOYA NAXIŞLI CIZMA VƏ OYMA.

Bu nümunələrin bir qismi bənövşəyi və mavi boyalı keramikalarla təmsil olunur. Bu növ naxış motivində ağ anqob üzərindən naxış çəkiləcək yerlərə bənövşəyi və mavi boya vurulur, sonra bu yerlər oyulur və üzərindən şəffaf şir vurulurdu. Bu tip qablardan Naxçıvan ərazisində kifayət qədər aşkar olumuşdur. Xaraba-Gilan ərazisindən XII-XIII əsrlərə aid təbəqələrdən belə naxışlı



qablardan 16 ədəd aşkar olunmuşdur. Naxçıvan ərazisində aşkar olunan bu tip keramikalarda əsasən həndəsi, nəbati (şəkil 6.2), nadirən də olsa quş (şəkil 6.3) və heyvan təsvirlərindən də istifadə olunmuşdur. Bəzilərində rənglər naxış motivləri ilə tam üst-üstə düşməmiş, xətlərdən kənara daşmışdır (şəkil 6.1). qabların üzərini ağ fonda metal oksidlərindən alınmış müxtəlif rənglərdə – yaşıl (xrom), bənövşəyi (manqan), sarı (oxra), qəhvəyi, mavi (kobalt) və qara (manqan və dəmirin qarışığı) füsunkar naxışlar bəzəyirdi. Onlar bənövşəyi, yaşıl naxışlı, mavi, qara naxışlı və bənövşəyi, qəhvəyi, yaşıl naxışlı qablarla təmsil olunurlar. Nümunələrdə dairə (şəkil 7.1), (şəkil 7.3), (şəkil 7.6), düz xətt (şəkil 7.2), romb (şəkil 7.5), üçbucaq kimi həndəsi elementlər üstünlük
təşkil edir. Bu cür qabların bənzərlərinə Naxçıvanın ( Xaraba-Gilan, Köhnə Qala (şəkil 7.4) və Azərbaycanın digər bölgələrində (Beyləqan, Şəmkir (Достиев, Т, 2017), (şəkil 10) və Ani şəhər yerində (Шелковников, Б, 1957) də rast gəlinmişdir. Ani şəhər yerində aparılan araşdırmalar zamanı aşkar olunan qabların hansı təbəqəyə aid olması bilinməsə də, nümunələr Dmanisi keramika nümunələrinin oxşarlıqlarına əsasən dövrləşdirilmiş və XII-XIII əsrlərə aid edilmişdir. Bu tip qabların və naxış motivlərinin digər bənzərlərinə Tiflis və Dərbənd kimi şəhərlərdə rast gəlinsə də, ərazidən aşkar olunan nümunələrin Yaxın Şərq və Cənubi Qafqaz nümunələri ilə qarşılaşdırılması zamanı gəlinən nəticəyə əsasən Naxçıvan şirli keramika nümunələri daha çox İran ərazisindən aşkarlanan nümunələrlə bənzərlik təşkil edir (Wilkinson, C, 1897:- Вактурская, Н, 1959:- Пугаченкова, Г, 1950).




**Şəkil 6.** Anqob üzərindən bənövşəyi və mavi naxış. Naxçıvan Dövlət Tarix Muzeyi.Muxtar respublika ərazisindən aşkar olunan bəzi şirli keramika nümunələrində

## NƏTİCƏ

IX əsr Naxçıvanda şirli keramikanın ən yüksək inkişaf etdiyi dövrlərin başlanğıcı kimi götürülür. Şirli keramikanın məhz bu dövrlərdə yüksək həddə çatması onun bədii tərtibatından, yüksək zövqlə hazırlanmasından, rəngindən, naxış və bəzək motivindən irəli gəlirdi. Bununla bərabər, Naxçıvanın orta əsr yaşayış yerlərindən bu dövrə aid aşkar olunan şirli keramika məhsullarının çoxluğu bunu sübut edir. Eyni zamanda ərazidən aşkar olunan şirli qab nümunələri arasında şirləmədə ( ləkələr, çatlar, yarım şirləmə, bəzi yerlərin az, bəzi yerlərin həddindən artıq qalın olması, ağaran üst təbəqə) naxışlamada (solğunluq, əyrilik, bir-birini izləməyən naxışlar, naxışlarda qırılmalar) və formaya salınmasında ( həddindən artıq əyilmələr, ağıza doğru bəzi yerlərin daralması, bütöv olmasına baxmayaraq heç bir forma verməməsi) istehsal qüsurlu qabların olması da yerli istehsalatdan xəbər verir. Naxçıvan ustaları saxsı qablar hazırlanan emalatxanalarda əraziyə xas olan məmulatlar hazırlamaqla yanaşı, Cənubi Qafqaz və Yaxın Şərq üslublarından da istifadə etmişlər. IX-XIII əsr Naxçıvan şirli keramikası əsas etibarı ilə quruluşu, rəngi, naxış motivi, həmin abidədən aşkar olunan numizmatik materialları, Yaxın Şərq və Cənubi Qafqaz bənzərləri ilə əlaqədar dövrləşdirilmişdir.

Naxçıvanda bu günə qədər aparılan qazıntılar zamanı arxeoloji kəşflər nəticəsində üzə çıxarılan, fondlarda və muzeylərdə qorunub saxlanılan saysız-hesabsız şirli keramika nümunələrinin istehsal texnologiyası, rəngi, naxış motivləri, yayılma sahələri, Azərbaycanın iqtisadi və mədəni əlaqələrində rolu araşdırılmışdır. Naxçıvan şirli keramika istehsalında çəhrayı gil üstünlük təşkil edir. Lakin, nümunələrdə boz və qırmızı rənglərə də rast gəlinir. Forma və üslub xüsusiyyətlərinə gəldikdə isə,

sadə, funksional formalar, qalın və davamlı divarlar, təbii saxsı qabların üstünlük təşkil etməsi aydın şəkildə fərqlənir.

Naxış motivlərində həndəsi və nəbati motivlər qabarıq görünür, bəzi hallarda heyvan fiqurlarından (quş, keçi, balıq) da istifadə olunur. Tədqiq olunan şirli keramika nümunələrinin demək olar ki, əksəriyyəti birqat şüşələmə, rəsm və rəngləmə üsullarından istifadə etməklə istehsal edilmişdir. Funksional xüsusiyyətlərinə görə qabların əksəriyyəti məişətdə istifadə olunan məişət əşyaları idi.

## ƏDƏBİYYAT SİYAHISI


1. Əfəndi R. (1976). Azərbaycan dekorativ-tətbiqi sənətləri. İşıq.
2. Əhmədov Q.M. (1979). Orta əsr Beyləqan şəhəri. Bakı.
3. Muradov V.A. (2017). Naxçıvan diyarında sənətkalıq və ticarət (XVIII-X əsrin əvvəlləri). Bakı: Elm.
4. Ибрагимов Б.И. (2000). Средневековый город Киран. Москва.
5. Достиев Т.М. (2017). Поливная керамика средневекового города Шамкир. Поливная Керамика Средиземноморья и причерноморья X-XVIII вв. (Том II). Кишинев.
6. Wilkinson C. K. (1897). Nishapur: Pottery of the Early İslamic Period.
7. Шелковников Б.А. (1957). Поливная керамика из раскопок города Ани. Ереван.
8. Вактурская Н.Н. (1959). Классификация средневековой керамика Хорезма (IX- XVII вв).
9. Пугаченкова Г.А. (1950). Самаркандская керамика XV в. Ташкент.
10. Керимов, Л. (1983). Азербайджанский ковер (Том II). Гянджлик.


## SUMMARY

## NAKHCHİVAN'S TRANSPARENT COLORLESS GLAZED CERAMİCS WİTH ENGRAVED AND CARVED PATTERNS MOTİFS (9TH-13TH CENTURİES)


**Aysel Ismayilova**



The article examines and includes ceramics with colorless transparent underglaze engraving patterns from the 9th-13th century glazed ceramics of Nakhchivan, their Middle Eastern and South Caucasian counterparts, patterns and decorative motifs, and involves research. As in Azerbaijan, the development of glazed ceramics in Nakhchivan began in the 9th century and went through a great development until the 13th century. As a result of research, ıt has been found that these types of ceramics are common in Nakhchivan with unpainted, monochrome and polychrome paint-patterned ceramic samples over angob, and similar ones are observed in the Middle East and South Caucasus region. The differences in both the painting and the patterns and decorative motifs indicate that they are the product of the imagination of local craftsmen.

The article also discusses the emergence, development, rules and types of scratch and carving motifs. In the early periods, simple technology became more complex from time to time, and simple methods of painting were replaced by monochrome and polychrome paints. Although green, blue, purple, brown and yellow colors sometimes follow scratch patterns in a magnificent way in painting, in some examples scattered, scattered and out-of-pattern patterns are found.



**Keywords:** *Nakhchivan, glazed ceramics, monochrome painted ceramics, polychrome painted ceramics, Middle East, South Caucasus*


## РЕЗЮМЕ

# НАХЧЫВАНСКАЯ КЕРАМИКА С ГРАВИРОВАННЫМИ И РЕЗНЫМИ УЗОРАМИ ИЗ ПРОЗРАЧНОЙ ГЛАЗУРИ (IX-XIII ВВ.)

**Айсель Исмайлова**

В статье были рассмотрены и привлечены к исследованию керамика с бесцветным прозрачным рисунком под глазурью из образцов глазурованной керамики Нахчывана IX-XIII веков, их ближневосточные и южнокавказские аналоги, узоры и орнаментальные мотивы.

Как и в Азербайджане, развитие глазурованной керамики в Нахчыване началось в IX веке и достигло значительного развития к XIII веку. В результате исследований, было обнаружено, что этот тип керамики вместе с образцами неокрашенной, монохромной и полихромной керамики на ангобе распространяется в Нахчыване, а их аналоги прослеживаются в регионе Ближнего Востока и Южного Кавказа. Различия как в росписи, так и в узорах и декоративных мотивах указывают на то, что они являются плодом воображения местных мастеров.

В статье также рассматриваются возникновение, развитие, правила и виды процарапывания и резьбы. В ранние периоды простая техника постепенно усложнялась, а на смену простым приёмам росписи пришли монохромные и полихромные краски. Хотя зелёный, синий, фиолетовый, коричневый и жёлтый цвета порой великолепно следуют процарапыванию, в некоторых образцах встречаются разрозненные, разрозненные и несоответствующие шаблону узоры.

**Ключевые слова:** *Нахчыван, глазурованная керамика, монохромная расписная керамика, полихромная расписная керамика, Ближний Восток, Южный Кавказ.*